**Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadənin Müəllimlərin XV Qurultayında**

**ÇIXIŞI**

**(28.11.2018)**

Hörmətli sədarət, hörmətli tədbir iştirakçıları, əziz müəllimlər !

Bu günkü tədbirdə çıxış etmək mənim üçün həm böyük şərəfdir, həm də çox həyəcan vericidir. Müəllimlərin qurultayının keçirildiyi salonda, insan istər-istəməz özünü tələbə kimi hiss edir və həyəcanlanır.

Bu gün ölkəmizdə gedən dayanıqlı sosial-iqtisadi inkişaf bütün sahələr üzrə yüksək təhsilli mütəxəssislərin hazırlanmasını tələb edir. Ölkə rəhbərliyinin məqsədyönlü fəaliyyəti, böyük diqqət və qayğısı sayəsində təhsil və mütəxəssis hazırlığı dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir.

Bu isə, öz növbəsində, bizim işimizin də keyfiyyətinə öz müsbət təsirini göstərir.

Bildiyiniz kimi bizim vəzifəmiz siz müəllimlərin yetişdirdiyi şagird və tələbələrin nailiyyətlərini qiymətləndirməkdir. Eyni şəkildə, siz də bizim həyata keçirdiyimiz işin təmsil etdiyiniz təhsil müəssisələrində tədris mühitinə təsiri haqqında öz fikrilərinizi bildirə bilərsiniz, yəni bir növ bizim işimizi qiymətləndirə bilərsiniz. İşimizin pedaqoji icma tərəfindən qiymətləndirilməsi şəxsən mən və təmsil etdiyim kollektiv üçün çox əhəmiyyətlidir.

Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsi Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2016-cı il 11 aprel tarixli Fərmanı ilə iki dövlət qurumunun bazasında yaradılıb. Həmin tarixdən etibarən Mərkəz öz fəaliyyətini yeni idarəetmə modeli və iqtisadi cəhətdən özünü təmin etmə prinsipi əsasında qurur.

Dövlət İmtahan Mərkəzinin vəzifəsi ölkəmizdə həyata keçirilən mərkəzləşdirilmiş imtahanların təşkili, standartlaşdırılması və keyfiyyətinin təmin olunmasından ibarətdir. Bu missiyanı layiqincə yerinə yetirmək məqsədilə biz şəffaflıq, nəzarət və keyfiyyəti özümüzün əsas dəyərlərimiz kimi müəyyən etmişik. Onu da qeyd edim ki, elmi-metodoloji yanaşma, elmi əsaslandırma, mütəxəssisləşmə və avtomatlaşma keyfiyyəti təmin etmək üçün əsas prinsiplərdir.

Qeyd etməliyəm ki, əhalinin bütün yaş qruplarını əhatə edən müxtəlif növ imtahanların, o cümlədən beynəlxalq imtahanların keçirilməsi Dövlət İmtahan Mərkəzinin iş təqvimində öz əksini tapıb.

Azərbaycan Respublikasının hər bir vətəndaşı 14 yaşından başlayaraq Dövlət İmtahan Mərkəzi tərəfindən mərkəzləşdirilmiş qaydada keçirilən imtahanlarda

iştirak edir. Bu mərhələdən etibarən şagirdlər öz bilik və bacarıq səviyyələrini vahid standartlar əsasında müəyyən etmək imkanı qazanırlar.

Nəzərinizə çatdırım ki, 2018-ci il ərzində DİM-in həyata keçirdiyi imtahanlarda ümumilikdə 641 517 nəfər iştirak edib.

Onu da qeyd edim ki, imtahanların keçirilməsində bir sıra dövlət orqanlarının nümayəndələri ilə yanaşı, müxtəlif tədris müəssisələrindən olan on minlərlə müəllim də DİM-in əməkdaşları ilə çiyin-çiyinə fəaliyyət göstərmişdir. Belə ki, il ərzində imtahanların idarə olunmasına 48 000-dən artıq mütəxəssis cəlb olunmuşdur. Qeyd edim ki, bu ilki imtahan kampaniyasında nəzarətçi qismində fəaliyyətinə görə 1072 nəfər müəllim təşəkkür məktubu ilə, 29 nəfər müəllim isə fəxri fərmanla təltif edilmişdir.

Dövlət İmtahan Mərkəzi imtahanların təşkili və keçirilməsində yüksək keyfiyyətə məhz müəllimlərlə yaxından əməkdaşlıq nəticəsində nail olur. Müəllimlər imtahanların məzmununun formalaşdırılmasından, nəticələrin yoxlanmasına qədər bütün mərhələlərdə yaxından iştirak edirlər. Bu ilki prosesdə ümumilikdə 2367 nəfər ekspert iştirak edib.

Hesabat ilinin ilk 9 ayı ərzində vətəndaşlar 7 000 000 dəfə DİM-in elektron xidmətlərindən istifadə ediblər. Bu o deməkdir ki, imtahanda iştirak edən hər bir şəxs orta hesabla 10 dəfə bizim elektron xidmətlərimizdən istifadə edib.

Onu da qeyd edim ki, dəqiq sayı bizə məlum olmasa da, bilirik ki, bir çox şagird və valideynlər bizim elektron xidmətlərimizdən məhz müəllimlərin yardımı ilə istifadə edirlər. Müəllimlər valideynlərə və şagirdlərə Dövlət İmtahan Mərkəzinin informasiya resurslarından istifadə etməkdə, məlumat və nəticələri düzgün təhlil etməkdə yaxından kömək edirlər və bununla da imtahan verənlərlə Dövlət İmtahan Mərkəzi arasında sağlam ünsiyyət qurulmasına dəstək verirlər. Mən fürsətdən istifadə edərək bu könüllü köməkçilərimizə öz minnətdarlığımı bildirmək istəyirəm.

Eyni zamanda biz də tədris prosesində müəllimlərimizə dəstək vermək üçün bir sıra tədbirlər həyata keçiririk. Yeni tədris proqramı üzrə qiymətləndirmə tapşırıqlarının nəşr olunması, şagirdlərin bilik səviyyəsini yoxlamaq üçün orta məktəb mövzuları üzrə onlayn imtahanların keçirilməsi, onlayn dərslərin təşkil olunması, təcrübəli ekspertlərin video mühazirələri, onlayn elmi-metodiki seminarlar bu tədbirlərdən bəziləridir.

Bundan başqa bu il Bakı şəhəri üzrə ümumilikdə 272, digər 14 rayonda isə 60 elmi-metodiki seminar keçirilib. Markerlərin hazırlanması üzrə Bakı şəhərində 23, digər şəhər və rayonlarda isə 40 hazırlıq kursu təşkil olunub. Kursları bitirən

798 müəllimə sertifikat verilib. Məlumat üçün bildirim ki, DİM-in bazasına 978 nəfəri Bakı şəhərini, 328 nəfəri isə regionları təmsil etməklə, ümumilikdə 1306 test bankı eksperti, 1285 nəfəri Bakı şəhərini, 704 nəfəri regionları təmsil etməklə, ümumilikdə 1989 marker daxildir.

Çıxışımın bu hissəsində DİM-in keçirdiyi imtahanların nəticələrinin maraqlı tərəflər üçün əhəmiyyətinə toxunmaq istərdim.

Vahid standartlar əsasında keçirilən imtahanlarda şagird və tələbələr öz səviyyələri haqqında obyektiv məlumat əldə edirlər. Eyni zamanda, keçirilən imtahanlardan bəziləri bir təhsil səviyyəsindən digərinə keçmək üçün körpü rolunu oynayır.

Bütün bu proseslər nəticəsində orta təhsil müəssisələri verdikləri təhsilin keyfiyyəti haqqında məlumat əldə edirlər. Orta ixtisas və ali təhsil müəssisələri isə dövlət tərəfindən təyin olunmuş standartlar əsasında yeni tələbələr qazanırlar.

Qeyd olunanlardan əlavə, mərkəzləşdirilmiş və vahid standartlara əsaslanan imtahanlar cəmiyyətdə ümumilikdə təhsilin keyfiyyəti ilə əlaqədar ətraflı təsəvvür yaradır, təhsil müəssisələri, regionlar və digər kateqoriyalar üzrə müqayisələr aparmağa imkan verir. Onu da qeyd edim ki, “Mənim Məktəbim” elektron resursu ölkə üzrə bütün ümumtəhsil məktəblərinin nəticələrini əks etdirir. Bu resursdan istifadə etməklə məktəblər arasında müqayisə aparmaq və hər bir məktəbin 1994-cü ildən bu günə qədər olan nəticələrinin dinamikasını izləmək mümkündür.

Biz hər imtahan kampaniyasının nəticələri əsasında geniş təhlillər aparırıq. Ölkədə təhsilin vəziyyətini real rəqəmlərlə əks etdirən bu hesabatlar dövlət başçısına, Təhsil Nazirliyinə və təhsil mütəxəssislərinə təqdim olunur.

Hörmətli müəllimlər!

Dövlət İmtahan Mərkəzi həyata keçirdiyi missiyanın səmərəliliyinin təmin olunması üçün proses iştirakçıları ilə sağlam əks əlaqə yaradılmasına da xüsusi əhəmiyyət verir. Bu prosesdə müəllimlərin müstəsna rolu vardır. Biz hesab edirik ki, prosedurların şagird və valideynlərə izah olunmasında, nəticələrin düzgün təhlil olunmasında, uşaqların güclü və zəif cəhətlərinin müəyyən olunmasında, imtahan verənlərdə realist gözləntilər formalaşdırılmasında müəllimlər yaxından iştirak etməlidirlər.

Mərkəzə işimizlə əlaqədar ictimaiyyətdən az da olsa şikayətlər də daxil olur. Biz bütün müraciətləri, o cümlədən şikayətləri çox dəyərli əks əlaqə kimi qəbul edirik.

Bu ilki imtahan kampaniyası ərzində Dövlət İmtahan Mərkəzinə ümumilikdə 2417 yazılı müraciət daxil olub ki, bu da iştirakçı sayının 0.3%-ni təşkil edir. Bu cür əks əlaqələr prosesin daha da təkmilləşməsinə kömək edir. Lakin onu da qeyd edim ki, biz yalan və iftiralara (saxtakarlığa) qarşı ehtiyatlı olmalıyıq. Təəssüflə qeyd etməliyəm ki, bəzən müəllim adını daşıyan şəxslər də bu tip qeyri-qanuni proseslərdə iştirak edirlər. Təbii ki, biz bu cür halların qarşısını alırıq və belə əməllərə hüquqi qiymət verilməsini təmin edirik.

Müəllimləri DİM-in fəaliyyəti ilə əlaqədar ictimai müzakirələrdə yaxından iştirak etməyə, fikir və düşüncələrini bizimlə bölüşməyə dəvət edirik.

Bizim fəaliyyətimizin legitimliyi cəmiyyətin etibarına əsaslanır. Biz bu etibarı işimizdəki şəffaflıq vasitəsilə qazanmışıq. İnformasiya dövriyyəsinin demokratikləşməsi bizim işimizin şəffaflaşmasına birbaşa təsir edir. Cəmiyyət də bizdən məhz bunu gözləyir. Biz həssas olmağa, bizimlə eyni prosesdə iştirak edən hər kəsi eşitməyə və dinləməyə çalışırıq.

Sosial şəbəkələr bizi diqqətli və fəal olmağa məcbur edir. Müasir texnologiyalar bizdən ictimaiyyətlə əlaqələrdə təşəbbüsü ələ almağı tələb edir. Bu tələbi qarşılamaqla birlikdə, biz şəxsi məlumatların məxfiliyinə və qorunmasına xüsusi diqqət yetiririk.

İmtahanlardan sonra həyata keçirdiyimiz tədqiqatlar və dəqiq rəqəmlərə əsaslanan hesabatların ictimaiyyətə açıqlanması bizim işimizə kənardan qiymət verilməsinə imkan yaradır.

Bu qədər çox sayda maraqlı tərəfin iştirak etdiyi prosesdə texnoloji zəncirin bütün halqalarını nəzarətdə saxlamaq və subyektiv amillərin təsirini aradan qaldırmaq vacibdir.

Ümidvaram ki, qurduğumuz sistem kənardan baxanda dəqiq işləyən mexanizm təəssüratı yaradır. Bu sistem müasir avadanlıq, proqram təminatı və imtahanların bütün mərhələləri üçün kadrlar hazırlanmasını ehtiva edir. Başqa sözlə, bu, davamlı olaraq təkmilləşən açıq sosio-texniki sistemdir.

Gələcəyə baxış və hədəflər qoyulması hər bir sistemin inkişafı üçün çox vacibdir. Biz müntəzəm olaraq öz fəaliyyətimizi və cəmiyyətdə olan tələbləri qiymətləndiririk və özümüzə yeni hədəflər və vəzifələr müəyyən edirik.

Biz hər il dərslik və proqramların monitorinqini keçiririk. Hesab edirik ki, tədris proqramı və dərsliklərdə baş verən dəyişikliklər imtahanların məzmununda da öz əksini tapmalıdır.

Cəmiyyətdə BigData – böyük verilənlər bazasından istifadə genişlənməkdədir. Təbii ki, biz də bu sahəyə öz töhfəmizi veririk. Yuxarıda qeyd etdiyim kimi, il ərzində DİM-in elektron xidmətlərindən 7 000 000 dəfədən çox istifadə olunub. Biz bütün proseslərdə rəqəmsallaşmanı prioritet kimi müəyyən etmişik və bu istiqamətdə öz fəaliyyətimizi təkmilləşdirməkdə davam edirik.

Biz imtahanların təşkilində getdikcə daha çevik yanaşma göstəririk. İmtahanların ildə iki dəfə, o cümlədən regionlarda da təşkil olunması bu istiqamətdə atılan addımlardandır.

Bildiyiniz kimi təhsildə inkluzivlik müasir dövrdə mühüm əhəmiyyət daşıyır. Biz də bunu qarşımızda duran əsas vəzifələrdən biri kimi müəyyən etmişik. Fiziki məhdudiyyətləri olan vətəndaşlarımızın bizim xidmətlərimizdən digər vətəndaşlarla eyni səviyyədə istifadə etməsini təmin etmək üçün müvafiq addımlar atırıq, xidmətlərimizi onların ehtiyaclarına uyğunlaşdırırıq.

Qeyd etdiyim kimi, biz müxtəlif sahələrdə fərqli məqsədlərlə qiymətləndirmələr həyata keçiririk. Hər bir imtahanın öz məqsədi və tələbləri var. Getdikcə hər bir sahə üzrə qiymətləndirmə tələbləri dəyişir və təkmilləşir. Buna görə də konkret məqsədlərə uyğun məzmun, standartlar və metodlar işləyib hazırlamaq, adaptiv alqoritmlər yaratmaq bizim əsas hədəflərimizdəndir.

Bizim üçün mühüm olan əsas məqamlardan biri də proses iştirakçılarının imtahan nəticələrini düzgün qavraması və onlardan formativ məqsədlərlə istifadə etməsidir. Bu sahədə də biz müəllimlərin köməyinə güvənirik.

Müasir elmi araşdırmalar sübut edir ki, müəllimin peşəkar motivasiyası şagirdlərin motivasiyası üçün mühüm şərtdir. Məhz peşəkar motivasiyası yüksək olan müəllimlər uşaqlarda öyrənmə həvəsini gücləndirir, tədris prosesində qarşılarına çıxan çətinliklərin öhdəsindən uğurla gəlir, uşaqların cəmiyyətin tələblərinə uyğun məqsədyönlü şəxsiyyətlər kimi yetişməsinə töhfə verirlər.

Müəllimin işinin səmərəliliyi məhz onun şagirdlərin inkişafına verdiyi töhfə ilə müəyyən olunur.

Möhtərəm Prezident cənab İlham Əliyev çıxışlarının birində demişdir:

“Gənclər, ilk növbədə bilikli olmalıdır. Bilik, savad, istedad, yenilik, müasirlik - hesab edirəm ki, gənclər üçün əsas istiqamətlər bunlardır.”

Bu gün ölkə rəhbərliyi tərəfindən uğurla həyata keçirilən gənclər siyasəti və gənclər üçün yaradılan geniş imkanlar nəticəsində Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində səmərəli fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır.

Gənclər bizim gələcəyimizdir. Müəllim peşəsi elə bir peşədir ki, o, fərdlərin və cəmiyyətin gələcəyini formalaşdırır. Bir ölkənin gələcəyinin inşa edilməsində ən ağır və ən məsuliyyətli vəzifə məhz müəllimlərin çiyinlərinə düşür.

Siz hər dəfə sinfə və ya auditoriyaya daxil olanda cəmiyyətimizin gələcəyinin qurulması istiqamətində bir addım atırsınız. Bu çətin və məsuliyyətli işdə sizə səbr, mətanət və uğurlar arzu edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.